# Gəncə bölgəsində yaşayan türk vətəndaşları seçkilərdə fəal iştirak edirlər





Mayın 5-də qardaş Türkiyə Respublikasının Gəncədəki Baş konsulluğunun qarşısında böyük izdiham yaşanırdı. Gəncədə yaşayıb-işləyən Türkiyə vətəndaşları Türkiyənin növbəti prezident və parlament seçkilərində iştirak etmək üçün növbəyə dayanmışdılar.

Ölkə üçün taleyüklü məsələ olan bu seçkilərdə daha layiqli namizədə səs vermək üçün onlar növbə ilə seçki məntəqəsinin üzvlərinə yaxınlaşır, şəxsiyyət vəsiqələrini təqdim edərək səsvermə bülleteni alır, istədikləri namizədə öz münasibələrini bildirirdilər.

Seçki məntəqəsinin sədri Kadır Gündoğdu ilə söhbət zamanı məlum oldu ki, konsulluqda yaradılan seçki məntəqəsi 28 bölgəni əhatə edir. Bu ərazilərdə yaşayan türk vətəndaşları təmsil etdikləri ölkədə keçirilən prezident və parlament seçkilərinə böyük maraq göstərirlər. Seçki məntəqəsində onların sərbəst şəkildə istədikləri namizədə səs vermələri üçün hər cür şərait yaradılmışdır. Uzaqda yaşayan, hətta Qarabağ ərazisində işləyən türk vətəndaşlarının məntəqəyə gətirilib-aparılması üçün avtobus da ayrılmışdır.

Məntəqəyə səs verməyə gələn Hulusi Aşiq deyir ki, mən xeyli vaxtdır Gəncədə inşa edilən idman sarayında elektrik havalandırmasının qurulması işində çalışıram. Türkiyənin tale yüklü bu seçkisində iştirak etməyi özümün vətəndaşlıq borcu hesab edirəm. Heç bir təzyiq olmadan istədiyim namizədə səs verdim.

Məntəqədə siyasi partiyaların müşahidəçilərinə də lazımi şərait yaradılıb. Milliyyətçi Hərəkat Partiyasının nümayəndəsi Orxan Ersenlə söhbət zamanı dedi ki, məntəqədə heç bir qanun pozuntusu müşahidə etmirəm. Hər bir türk vətəndaşına istədiyi namizədə səs verməsinə lazımi şərait yaradılıb.

Türkiyənin Gəncədəki Baş konsulluğunda fəaliyyət göstərən seçki məntəqəsində seçki prosesi 3 gün davam edəcəkdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 6 may.- S.10.